*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 25 iyul 2018-ci il № 56 (2272) Qiymәti 25 qәpik


# Vətən sərhəddən başlanır



*Vətən və yurd məhəbbəti təkcə insanlara məxsus deyil, Allahın yaratdığı istənilən canlıda bu hiss mövcuddur. Heyvanlar, quşlar da öz yuvalarını sevir, onları qoruyur. Qışda isti ölkələrə köçən quşlar havalar mülayimləşdikdə min kilometrlərlə uzanan məsafələri qət edib geriyə - Vətənlərinə dönür. Ona görə də Vətən anlayışı özü-özlüyündə daha geniş mənanı ifadə edir.*

Vətənimizə bağlılıq milli-mənəvi dəyərlərimizə, ailəmizə, bayrağımıza, dilimizə, tariximizə, adət-ənənələrimizə, dinimizə bağlılıqdır. Bu barədə ümummilli liderimiz Heydər Əliyev belə demişdir: "Vətəni qorumaq öz ana torpağını, evini, obasını, yurdunu qorumaqdır. Vətəni qorumaq öz namusunu, şərəfini qorumaqdır. Vətəni qorumaq öz atasını, anasını, balalarını, övladlarını qorumaqdır. Vətəni qorumaq Azərbaycan xalqının tarixini, mənəviyyatını, əsrlər boyu əldə etdiyi milli mədəniyyətini, milli iftixarını qorumaq deməkdir. Bu şərəfli yoldur. Bu şərəfli vəzifədir."

Azərbaycan Ordusunda xidmət edən hər bir əsgər bu şərəfli vəzifəni dərk edir, üzərinə düşən öhdəçiliyi layiqincə yerinə yetirir. Bizlər də tez-tez Vətən torpaqlarına keşik çəkən igidlərimizə baş çəkir, onların Vətənə olan sevgisini qələmə almağa çalışırıq.

Günəşin hərarətini gördükdə, ön xətdə xidmət edən döyüşçülərimiz yadıma düşür. Düşünürəm ki, nə qışın sərt şaxtası əsgərlərin xidmətinə maneçilik törədə bilməz, nə də yayın istisi, çünki Vətən, torpaq sevgisi çox şeyə qadirdir.

**(Ardı 2-ci səhifədə)**

# Müdafiə naziri qoşunların operativliyinin artırılması ilə bağlı tapşırıqları müəyyən edib

*İyulun 21-də Mərkəzi Komanda Məntəqəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi altında nazirliyin rəhbər heyətinin iştirakı, həmçinin videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birlik və birləşmə komandirlərinin cəlb olunması ilə xidməti müşavirə keçirilib.*



Keçirilmiş təlimlər, komandanlar və komandirlərin məruzələri, həmçinin qoşunların hərtərəfli fəaliyyətinin yoxlanılmasının nəticələri əsasında cəbhə bölgəsindəki və qoşunların digər dislokasiya yerlərindəki cari vəziyyəti təhlil edərək Müdafiə naziri müvafiq göstərişlər verib.

Gizli idarəetmə və maskalanmanın tələblərinə ciddi riayət etməklə ehtimal olunan döyüş əməliyyatları istiqamətlərində qüvvə və vasitələrin vaxtında cəmləşdirilməsi məqsədilə general-polkovnik Zakir Həsənov qoşunların operativliyinin, döyüş hazırlığının, bölmələrin, birləşmələrin yüksək manevrlilik və dəqiq qarşılıqlı fəaliyyətinin artırılması üzrə tapşırıqları müəyyən edib.

Müşavirə zamanı ümumi təhlükəsizlik məsələlərinə, xüsusilə də yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət olunması, həmçinin qoşunların fasiləsiz və hərtərəfli təminatı ilə əlaqədar göstərişlər verilib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Azərbaycan HHQ-nin döyüş imkanlarını daha da gücləndirəcək birgə layihələr müzakirə olunub



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iyulun 23-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Aviasiya və Kosmik Sənaye Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru Temel Kotilin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında hərbi-texniki əməkdaşlıq çərçivəsində aviasiya sahəsində ekspert qruplarının qarşılıqlı səfərlərinin təşkili, mütəxəssislərin təcrübə mübadiləsi, hərbi təhsil və maraq doğuran digər məsələlər müzakirə olunub.

Tərəflər hərbi sahədə müxtəlif proqramların, o cümlədən Azərbaycan Hərbi Hava Qüvvələrinin imkanlarını daha da gücləndirəcək yeni nəsil döyüş təyyarə və helikopterlərin öyrənilməsi və tətbiqi üzrə birgə layihələrin həyata keçirilməsi məsələlərinə də toxunub.

## Hərbi qulluqçumuz şəhid olub

Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəs rejiminin kobud surətdə pozulması nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu əsgər Alışov Səməd Anar oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, səbr diləyir.

## Azərbaycan hərbçiləri Moskvaya yola düşüb

"Beynəlxalq Ordu Oyunları - 2018" yarışları çərçivəsində iyulun 28-dən avqustun 11-dək Alabino poliqonunda keçiriləcək "Səhra mətbəxi" müsabiqəsində iştirak etmək üçün Azərbaycanın hərbi aşpazları Moskvaya yola düşüb.

Bir neçə mərhələdən ibarət olan müsabiqədə hərbi aşpazlar milli mətbəx yeməklərinin hazırlanması üzrə də məharətlərini nümayiş etdirəcəklər.

## Azərbaycan hərbçiləri Belarusa yola düşüb

"Beynəlxalq Ordu Oyunları - 2018" çərçivəsində keçiriləcək "Snayper həddi" müsabiqəsində iştirak etmək üçün Azərbaycanın snayperlərdən ibarət komandası Belarusa yola düşüb.

Müsabiqə Belarus Respublikasının Brest şəhərində keçiriləcək.

# Vətən sərhəddən başlanır

(Əvvəli 1-ci səhifədə)

Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsindəyik. Ənənəyə uyğun olaraq qərargahda zabit Eldəniz İsmayılovla görüşürük. O, gəlişimizin məqsədi barədə komandirə məlumat verdikdən sonra vaxt itirmədən döyüş mövqeyinə yola düşürük.

Ön xətdə bizi bölmə komandiri kapitan Bayram Hüseynov qarşıladı. Yolboyu söhbətimiz ancaq əsgərlər barəsində, onların mövcud sosial-məişət şəraiti, qayğıları haqqındadır. Bölmə komandiri bildirdi ki, bu gün ön xətdə xidmət edən şəxsi heyətin bütün qayğıları ordu rəhbərliyinin diqqət mərkəzindədir.

- Əsgərlərin gündəlik məişət şəraitinə, keyfiyyətli qidalanmasına ciddi önəm verilir. Hər bir əsgər vaxtlı-vaxtında məzuniyyətə göndərilir, kiminsə ailə problemi yaranarsa, diqqətimizi, köməyimizi əsirgəmirik. Ona görə də şəxsi heyət ayıq-sayıq xidmət aparır, verilən tapşırıqların öhdəsindən layiqincə gəlir.

Bölmə komandiri onu da bildirdi ki, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir. “Hər kəs Vətənimizin müdafiəsində dayanmağın mənəvi məsuliyyətini aydın dərk edir və bu vəzifəni yerinə yetirməsindən qürur duyur”.

Bölmə komandirindən eşitdiklərimizin şahidi olduq. Döyüş mövqeyi olsa da, burada əsgərlərin xidməti vəzifələrini yerinə yetirmələri üçün hər bir şərait yaradılıb.

Səngərdə gizir Seymur Behbudovla həmsöhbət oluram. Öyrənirəm ki, Seymur iki ilə yaxındır bu vəzifədə xidmət edir. O, bundan öncə "N" hərbi hissəsinin artilleriya divizionunda top komandiri olub. 2014-cü ildə xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olmaq qərarına gəlib. Üç il xidmət etdikdən sonra gizir hazırlığı kursuna daxil olub və bu gün ordu sıralarında nümunəvi xidməti ilə seçilənlər sırasındadır. Əraziyə yaxından bələd olan gizir bildirdi ki, düşmənlə təmas xəttində xidmət etməyin məsuliyyətini tabeliyindəki hər bir əsgərin diqqətinə çatdırıb. “Hər növbə dəyişildikcə əsgərlərlə Vətən torpaqlarını qorumağın nə qədər şərəfli



olması barədə söhbət edirəm. Həmçinin qarşımızda dayanan düşmən qüvvələrinin ikiüzlülüyündən və tarix boyu bizə etdikləri fitnəkarlıqlarından da söz açıram. Bilirəm ki, mənim dediklərim onların düşmənə qarşı nifrətini birə-beş artırır. Onların hər biri bu gün Ali Baş Komandanımızın döyüş əmrini yerinə yetirməyi səbirsizliklə gözləyirlər.”

Sumqayıt şəhərindən hərbi xidmətə çağırılan Elmar Eminov əsgər olmasına baxmayaraq, manqa komandiri vəzifəsindədir və özünü qısa zamanda doğrulda bilib. Onun öz işini bacarıqla yerinə yetirməsindən post başçısı da söz açdı.

Söhbət zamanı Elmar layiq görüldüyü vəzifə çətin olduğu qədər, şərəfli olduğunu bildirdi: "Sevinirəm ki, döyüş postunda xidmət edirəm. Əsgər olsam da, komandirlərim mənə məsuliyyətli iş tapşırıblar. Hər gün növbələri dəyişir, tez-tez müşahidə aparan əsgər yoldaşlarımı yoxlayıram. Çünki mən də onlarla birlikdə Vətənin müdafiəsindəyəm. Müşahidə vaxtı gözə çarpan bir dəyişiklik, yaxud düşmən qüvvələrinin hər hansı hərəkətini gördükdə, dərhal komandirimə məruzə edirəm. Çalışıram ki, mənə göstərilən etimadı doğruldum".

Digər müşahidə mövqeyində dayanan əsgər Murad Abbasov postda yaradılan şəraitdən razılıqla danışdı. "Şəxsi heyətin normal xidmət etməsi üçün hər cür şərait yaradılıb. Xidmət müddətində ordu ilə bağlı fikirlərim xeyli dəyişib. Buradakı maddi-texniki təminat, yaradılmış şərait bütün əsgər yoldaşlarımda ruh yüksəkliyi yaradır və döyüş əzmimizi daha da artırır".

Lənkəran rayonundan ordu sıralarına çağırılan əsgər Nahid Nəhmətzadə xidmətdə keçirdiyi hər günün onun Vətəni, xalqı qarşısında sınaq günü olduğunu bildirdi: "Biz burada kişilik məktəbi keçirik və əsl azərbaycanlı döyüşçüsünün nümunəsini yaradırıq. Bilirik ki, Ali Baş Komandanımız da, millətimiz də bizə güvənir. Biz isə hər an bu etimadı canımız, qanımız bahasına doğrultmağa hazırıq".

Əsgər Sahil Ağayevin sözləri məni daha çox qürurlandırdı. O, Vətənin torpaqlarını qorumağın insanın şərəfi ilə bir tutulduğunu qeyd etdi: "Hər bir vətəndaş yaşadığı, böyüyüb boya-başa çatdığı torpağı qorumalıdır. Bu bizim vətəndaşlıq borcumuzdur. Çünki sərhəd Vətəndir, Vətənsə namusdur. Necə ki, sevdiklərimizə yad baxışları rəva görmürük, eləcə də sərhədlərimizə toxunanı cəzasız qoymamalıyıq. Hər birimiz Ali Baş Komandanımızın əmrinə hazır olmalı və sərhədlərimizi yenidən bərpa etməyə hazır olmalıyıq."

Bu gün Azərbaycan Ordusunda xidmət edən hər kəsin əsas vəzifəsi xalqımıza düşmənçilik hissləri bəsləyən erməni şovinizminə qarşı mübarizlik əzmimizi qorumaq və tarixi torpaqlarımızın düşmən tapdağından təmizlənməsi üçün savaşa hər an hazır olmaqdır.

Görüşümüz başa çatsa da, xoş xatirələr yaddaşımdan silinməyəcək. Zöhrabı, Qədiri, Arazı və onların timsalında hər bir Azərbaycan əsgərini xatırlayacaq, Vətənin keşiyində dayanan döyüşçülərlə fəxr edəcəyəm.

**Baş leytenant
Məhəmməd NƏSİRLİ,
"Azərbaycan Ordusu",
fotolar
C.CƏFƏROVUNDUR**

# "Bu gün gərək hər anımız Vətən desin!"

## devizi altında kütləvi vətənpərvərlik tədbiri keçirilib

*Müdafiə Nazirliyi və Ağstafa rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Bu gün gərək hər anımız Vətən desin!" devizi altında kütləvi vətənpərvərlik tədbiri keçirilib.*



Ağstafa şəhər Səməd Vurğun adına Mədəniyyət və İstirahət Parkına toplaşan Müdafiə Nazirliyinin rəsmiləri, Ağstafa rayon İcra Hakimiyyətinin rəhbərliyi, bölgədə xidmət edən hərbi qulluqçular, müharibə veteranları, şəhid ailələri və ictimaiyyət nümayəndələri əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad ediblər, hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət himni ifa olunub.

Layihənin müəllifi, Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani tədbirin mahiyyəti barədə ətraflı məlumat verib, vətənpərvərlik işinin ölkəmizdə bu gün geniş vüsət aldığını, Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının, vətənpərvərlik hissinin yüksəldiyini, xalq ilə ordunun birliyinin, həmrəyliyinin daha da möhkəmləndiyini bildirib.




Qeyd olunub ki, çətin, məsuliyyətli, ancaq şərəfli, müqəddəs bir missiyanı yerinə yetirən Azərbaycan Ordusu torpaqlarımızın müdafiəsi, xalqımızın əmin-amanlığının, xoşbəxt, firavan yaşamasının etibarlı təminatçısı olaraq Vətən, xalq, dövlət qarşısında vəzifələrini layiqincə yerinə yetirir.

2016-cı ilin aprelində Füzuli, Cəbrayıl, Ağdərə, Tərtər istiqamətlərində və bu yaxınlarda Naxçıvan Muxtar Respublikasında Azərbaycan əsgərinin düşmənə vurduğu sarsıdıcı zərbə, qazanılan zəfərlər xalqımızı sevindirir və hər bir ölkə vətəndaşının işğal altında olan əzəli torpaqlarımızın da tezliklə azad olunacağına inamını daha da artırır.

"Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə paytaxtımız Bakıda, Azadlıq Meydanında keçirilən möhtəşəm hərbi paradda Azərbaycan Ordusu güc və qüdrətini, nəyə qadir olduğunu həm xalqımıza, həm dünyaya, həm də düşmənlərimizə bir daha nümayiş etdirdi. Ali Baş Komandanımız hərbi paradın tribunasından dünyaya bəyan etdi ki, ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir və ordumuz düşmənin bütün strateji hədəflərini məhv etməyə qadirdir. Azərbaycan heç vaxt işğalla barışmayacaq və tezliklə öz ərazi bütövlüyünü bərpa edəcək", - polkovnik A.Qurbani deyib.

Tədbirdə vurğulanıb ki, hərbi paraddan sonra düşmən təşviş içindədir. İşğal etdiyi əraziləri qeyd-şərtsiz tərk etmək, qoşunlarını geri çəkmək, işğala, təcavüzə son qoymaq əvəzinə, yenə də hiylələr, məkrli niyyətindən əl çəkmir, atəşkəs rejimini intensiv olaraq pozur, təxribatlara əl atır, dinc əhalini atəşə tutur. Ancaq düşmənlərimiz və onların havadarları birdəfəlik bilməlidirlər ki, heç kim, heç bir qüvvə Azərbaycanı müstəqillik yolundan döndərə bilməz. Minlərlə şəhidimizin qanı hesabına qazandığımız dövlət müstəqilliyimiz əbədidir, daimidir, sarsılmazdır. Çünki dövlət müstəqilliyimizin Azərbaycan Ordusu kimi qarantı, Azərbaycan əsgəri kimi qəhrəman müdafiəçiləri və onların arxasında böyük bir xalq var. Bu gün hər bir Azərbaycan vətəndaşı ölkə rəhbərliyinin ətrafında sıx birləşib və hər bir azərbaycanlı Vətənə, dövlətə sədaqətlə xidmət edir.

Ağstafa rayon İcra Hakimiyyəti başçısının birinci müavini Ramiz Tatarov bütün xalqımız kimi ağstafalıların da bu gün vətənpərvərlik hissi ilə yaşadığını, ordumuza daim arxa, dayaq olduğunu, ağstafalı gənclərin Silahlı Qüvvələrin bütün qoşun növlərində Vətənə, dövlətə sədaqətlə xidmət etdiklərini, hərbi peşələrə həvəslə yiyələndiklərini bildirib və bu kimi vətənpərvərlik tədbirlərini cəbhəboyu rayonlarda mütəmadi olaraq təşkil etdiyinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıq edib.

Rayon Ağsaqqallar Şurasının sədri Firdovsi Heydərli, hərbi paradın iştirakçısı baş gizir Samir Rzayev, Azərbaycan Yazıçılar Birliyinin Qazax bölgəsi üzrə rəhbəri, Əməkdar İncəsənət xadimi, şair-publisist Barat Vüsal çıxış edərək Azərbaycan Ordusunun güc və qüdrətindən böyük qürur duyduqlarını deyib və builki hərbi paradın hər bir Azərbaycan vətəndaşının həyatında



unudulmaz tarixi hadisəyə çevrildiyini fərəh hissi ilə nəzərə çatdırıblar.

Aşıq Hüseyn Hüseynov tədbir iştirakçılarını qələbəyə, birliyə, həmrəyliyə səsləyən ifası ilə tamaşaçılarda xoş ovqat yaradıb.

"Mənim oğlum Şahlar 1992-ci ildə Tərtər uğrunda döyüşlərdə qəhrəmanlıqla şəhid olub. Düşmənlərimiz elə bilirdi ki, Aşıq Hüseyn oğlunun ölümündən sonra bir daha saz çalmaz. Ancaq onlar eşitsinlər ki, mən də sazımnan, sözümnən bu gün əsgərəm. Nəyin gücünə olursa olsun, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik.", - el aşığı deyib.

Tədbirdə Azərbaycan Ordusunun yaranmasının 100 illiyi münasibətilə və Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, qarşıya qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiyinə görə Ağstafa rayonunun Qıraq Kəsəmən kəndinin yetirməsi əsgər Tatarov Adil Əli oğlunun ölümündən sonra "Vətən uğrunda" medalı təltif olunması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı oxunub və medal şəhidin valideynlərinə təqdim edilib.

Şəhid atası Əli Tatarov göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıq edib və şəhidlərin intiqamını almaq üçün Tatarovlar ailəsinin də Ali Baş Komandanın hər bir əmrinə hazır olduğunu bəyan edib.

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin, Gəncə Qarnizonu Zabitlər Evinin yaradıcı kollektivləri hərbi marş və vətənpərvərlik mahnıları ifa ediblər.

Tədbirin sonunda hərbi qulluqçulara "Azərbaycan əsgərinə müraciət" bukletləri paylanılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*24 iyul 2018-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 87 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Şavarşavan kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən, Qazax rayonunun Qaymaqlı, Quşçu Ayrım kəndlərində, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Nəmirli, Tağıbəyli, Baş Qərvənd, Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonlarındakı ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Rusiyanın və Qazaxıstanın hərbi gəmiləri Bakıya gəlib



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycanın Xəzər dənizindəki ərazi sularında keçiriləcək "Dəniz Kuboku-2018" beynəlxalq müsabiqəsində iştirak etmək məqsədilə Rusiya Hərbi Dəniz Donanmasının Xəzər flotiliyasının "Volqodonsk" və "Mahaçkala" kiçik artilleriya gəmiləri, eləcə də "SB-45" xilasetmə yedək gəmisi iyulun 23-də Bakıya gəlib.

* * *



Azərbaycanın Xəzər dənizindəki ərazi sularında keçiriləcək "Dəniz Kuboku-2018" beynəlxalq yarışlarında iştirak etmək məqsədilə Qazaxıstan Hərbi Dəniz Qüvvələrinin "Manqistau" raket-artilleriya gəmisi iyulun 23-də Bakıya gəlib.

# Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin məzunlarının görüşü keçirilib

*Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin 1988-ci il məzunlarının buraxılışlarının 30 illiyi münasibətilə görüş keçirilib.*

AZƏRTAC xəbər verir ki, görüşdə məktəbi bitirmiş müxtəlif ölkələrin hərbi qulluqçuları və onların ailə üzvləri də iştirak ediblər.

Qonaqlar Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını, eləcə də Şəhidlər xiyabanını ziyarət ediblər.

Tədbir iştirakçıları Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində hərbi orkestrin müşayiəti ilə təntənəli surətdə qarşılanıb və iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun büstü önünə gül dəstələri qoyublar.

Məzunlar Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin ərazisindəki hərbi tədris və yaşayış obyektlərinə, atəş və taktiki şəhərciklərə baxış keçiriblər. Sonra iştirakçılar "Üçtəpə" təlim mərkəzinə səfər edib, burada yaradılmış xidməti şərait və maddi-texniki baza ilə tanış olublar.

Tədbir iştirakçılarının şərəfinə verilən rəsmi ziyafətdə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin 1988-ci il məzunu, Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev də iştirak edib.

Görüş iştirakçılarını salamlayan general-polkovnik Elçin Quliyev məzun olmalarının 30 illiyi münasibətilə kursant yoldaşlarını təbrik edib, onlara uğurlar arzulayıb.

Çıxış edənlər Bakıda hərbi məktəbdə təhsil aldıqları illərlə bağlı xatirələrini bölüşüblər. Xatirələr sırasında 1987-ci ildə SSRİ Müdafiə Nazirliyindən göndərilmiş xüsusi inspeksiya tərəfindən Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin bağlanılması və kursantların başqa hərbi məktəblərə köçürülməsi barədə rəy verilməsi, bununla əlaqədar hərbi məktəbin şəxsi heyəti, o cümlədən də kursantları tərəfindən müxtəlif instansiyalar qarşısında etiraz səslərini ucaltmaq cəhdlərinin nəticəsiz qalması, respublikanın həmin dövrdəki rəhbərliyinin hərbi məktəbi qorumaq iqtidarında olmaması diqqətə çatdırılıb. Yalnız həmin dövrdə SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü olan ulu öndər Heydər Əliyevin bu məsələyə müdaxiləsi sayəsində qərarın qarşısının alınması minnətdarlıqla xatırlanıb. Bu hadisələri xatırlayan məzunlar Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin bitirərək ilk zabit hərbi rütbələrini ala bilmələrinə görə dahi öndər Heydər Əliyevə minnətdar olduqlarını xüsusi vurğulayıb və onun uca xatirəsini böyük ehtiramla yad ediblər.

MDB üzv ölkələrinin hərbi struktur qurumlarında uzun müddət xidmət edərək böyük hərbi təcrübə qazanmış, bir qismi artıq təqaüddə olan məzunlar Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin müasir səviyyəsi və döyüş qabiliyyəti haqqında təəssüratlarını bölüşüb, yüksək döyüş imkanlarına malik hərbi potensialın qısa müddətdə formalaşdırılmasında Azərbaycan Prezidenti, Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin xidmətlərini xüsusi qeyd ediblər.

Tədbirdə məktəbin məzunlarının xidmət yoluna dair qısametrajlı film nümayiş etdirilib, iştirakçılara "Buraxılışın 30 illiyi" xatirə medalı və qiymətli hədiyyələr təqdim olunub. Tədbir musiqili proqram ilə davam edib.

Tədbir iştirakçıları üçün Quba rayonunda istirahət proqramı təşkil olunub.



# Beynəlxalq Böhran Qrupu: Ermənistanın yeni rəhbərliyi Dağlıq Qarabağ münaqişəsinin həllinə etinasız yanaşır

Ermənistanın yeni rəhbərliyi 30 ildir davam edən Dağlıq Qarabağ probleminin həllinə etinasız yanaşır və bu münaqişənin nizama salınmasında rəsmi Yerevanın uzun illərdir davam edən mövqeyini qoruyub saxlayır.

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Böhran Qrupunun rəsmi saytında yerləşdirilmiş 2018-ci il üçün ikinci hesabatda Ermənistanın baş naziri Nikol Paşinyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin nizama salınmasına qeyri-konstruktiv mövqeyi tənqid edilir. Bildirilir ki, başı daxili problemlərin həllinə qarışmış Ermənistan hökumətinin Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına biganə münasibəti gərginliyin artmasına səbəb ola bilər. Münaqişənin həlli istiqamətində hər hansı irəliləyişin olmaması Azərbaycanı öz ərazilərini hərbi yolla qaytarmağa məcbur edə bilər.

Hesabatda rəsmi Bakının uzun müddətdir davam edən qeyri-müəyyənlikdən narazı olduğu və bunun da onun status-kvonu dəyişdirmək niyyətini gücləndirə biləcəyi qeyd edilir. Münaqişənin yenidən alovlanması nın 2016-cı ilin Aprel döyüşlərindən də ağır nəticələrə gətirib çıxaracağı vurğulanan hesabatda deyilir ki, güzəştə getməkdən imtina edən Ermənistan hökuməti sərhəd bölgəsindəki 300 min dinc əhalinin, o cümlədən Azərbaycanın işğal olunmuş ərazilərində raketlərin və artilleriyanın yaxınlığında yaşayan 150 min ermənin taleyini düşünməlidir.

# “David Tonoyanın bəyanatı Ermənistan əhalisini ruhlandırmağa xidmət edir”

Ermənistan ordusundakı son korrupsiya qalmaqalı fonunda müdafiə naziri David Tonoyanın guya 200 milyon dollarlıq kredit razılaşmasında nəzərdə tutulmuş silahların Rusiya tərəfindən Ermənistana tam tədarükünün başa çatdırılması barədə bəyanatı bu ölkə əhalisinin süni şəkildə ruhlandırılması cəhdindən başqa bir şey deyil.

Bu barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildiriblər.

Nazirliyin açıqlamasında qeyd olunub ki, bir müddət əvvəl Ermənistan tərəfi 200 milyon dollarlıq kredit razılaşmasında nəzərdə tutulmuş Rusiya istehsalı olan silahların Ermənistana tədarükündə ciddi problemlərin olduğunu bildirib. Lakin, qısa müddət keçdikdən sonra Ermənistanın müdafiə naziri David Tonoyan əvvəl deyilənlərə zidd olaraq vicdan əzabı çəkmədən həyasızcasına bütün aləmə car çəkir ki, guya Rusiya Ermənistana silah tədarükünü tam başa çatdırıb. Ermənistana çatdırılan müasir, modernizə edilmiş silahlar arasında Rusiya ordusunun belə silahlanmasına verilməyən silahların olması barədə Tonoyanın dediklərinə gəldikdə, bu, öz xalqını aldatmaqdan başqa bir şey deyil. Ermənistan tərəfinin mütəmadi olaraq bu cür məlumatlar yayması ordudakı son korrupsiya qalmaqalı fonunda ölkə əhalisinin süni şəkildə ruhlandırılması məqsədilə daxili auditoriyaya hesablanıb.

"Müdafiə naziri kimi, D.Tonoyan bilməli idi ki, Rusiya öz Silahlı Qüvvələrini hər hansı silah növü ilə tam təmin etmədən həmin silahı xarici ölkələrə tədarük etmir. Şübhəsiz ki, Ermənistanın müdafiə nazirinin fəxrlə bəhs etdiyi silahlar doğrudan da Rusiya ordusunun silahlanmasında yoxdur. Səbəb isə sadədir: həmin silahlar artıq köhnəlib və istifadəyə yararsızdır", - deyə Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildiriblər.

# "Gənc Heydərçilər"in yay istirahət düşərgəsi davam edir

*Müdafiə Nazirliyi və Səbail rayon İcra Hakimiyyəti tərəfindən "N" hərbi hissəsində təşkil olunan "Gənc Heydərçilər"in hərbi vətənpərvərlik təmayüllü düşərgəsindəyik. Xəfif meh əsir, ara-sıra yağış çisələyir. Yay fəsli olsa da, bu gün bütün əlamətləri ilə payız havasıdı elə bil. Təbiət havası ruhumuza sığal çəkir...*



Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti Əfqan Əliyev dedi ki, təhsildə və idmanda fərqlənən, xüsusi istedadlı yeniyetmələri, həmçinin döyüşlər zamanı şəhid olmuş və cəbhə xəttində xidmət edən zabitlərin övladlarının iştirak etdiyi "Gənc Heydərçilər" layihəsi artıq 5-ci ildir gerçəkləşir və gəncliyin Vətənə sədaqət ruhunda tərbiyəsi baxımından müstəsna əhəmiyyətə malikdir. "Müasir dövrdə hər bir ölkənin inkişaf siyasətinin əsasında dayanan amillərdən biri də gənclərin dünya görüşünün hərtərəfli inkişafının təmin edilməsidir. Gənc nəslin həm fiziki, həm də mənəvi cəhətdən sağlam böyüməsi, vətənpərvərlik ruhunda tərbiyə olunması müstəqil dövlətçiliyin möhkəmləndirilməsi üçün mühüm amillərdəndir. Çünki möhkəm və güclü dövlətin varlığı gənclərin bir şəxsiyyət kimi formalaşmasından, onların Vətənə sevgisindən çox asılıdır. İnsanın Vətənə bağlılıq hissinə malik olması onun ən ali əxlaqi-mənəvi məziyyətləri sırasında birincilərdən hesab olunur. Bu məsələ cəmiyyətdə daim aktual olmuş, bu gün də aktual olaraq qalır. Millətin vətənpərvərliyi onun tamlığının, bütövlüyünün təməlidir. Bu hiss onun əsas komponentlərini də - doğulduğun torpağı, yaşadığın ölkəni sevmək, uğrunda çalışmaq, ona əməlləri ilə faydalı olmaq, onu qorumaq kimi keyfiyyətlərlə yanaşı, insanın ləyaqətlilik, əqidəlilik, vicdanlılıq, sədaqətlilik əlamətlərini də yada salır. Vətənə sədaqət ruhu ilk növbədə ailədən, uşaqlıq çağından başlamalıdır. Həmin vaxtdan aşılanan fikirlər uşağı gələcəkdə bir şəxsiyyət olaraq formalaşdırır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Vətənpərvərlik, sadəcə, orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq da vətənpərvərlikdir." Tədbirin keçirilməsində məqsəd məhz bu hisslərin təbliğidir. Nəzərə almaq lazımdır ki, uşaqlarda bu hiss tədricən, necə deyərlər, mərhələ-mərhələ formalaşır. "Gənc Heydərçilər" layihəsində iştirakçıların intellektual və vətənpərvər ruhda formalaşması istiqamətində lazım olan bütün addımlar atılır və müsbət nəticə əldə edilir. Gələcək əsgərlərimizin hərbi təlimatlarla, şəxsi heyətin gündəlik həyat və fəaliyyəti ilə, hərbi hissədəki şəraitlə, hərbi hissənin silah və döyüş texnikası, əsgərlərin gündəlik həyatı ilə tanış olması üçün hər cür şərait yaradılıb. Yeniyetmələrin ordu haqqında təəssüratları xeyli zənginləşib. Uşaqların təlim-tərbiyə işləri ilə hərbi hissənin zabit, gizir və çavuşlarından ibarət qrup, Səbail rayonunun orta məktəblərində çalışan idman və hərbi hazırlıq müəllimləri, universitetlərin fəal tələbələri məşğul olurlar. "Gənc Heydərçilər"in hərbçilərlə yaxından təmasını təmin etməklə həm gələcəkdə hərbi xidmətə daha yaxşı hazırlaşmalarını, həm də hərbçi peşəsinə maraqlarının artırılmasına çalışırıq.



Hərbi hissədə xüsusi olaraq ayrılmış kazarmada yeniyetmələrin istirahəti üçün bütün imkan yaradılıb: "Düşərgənin hərbi vətənpərvərlik təmayüllü olması nəzərə alınaraq uşaqlar xüsusi geyim forması ilə təmin edilib. Günün birinci yarısınadək keçirilən dərslərdə uşaqlara hərbi xidmətlə bağlı ilkin anlayışlar aşılanır. İkinci yarısında mədəni-kütləvi tədbirlər keçirilir. Yeniyetmələr gündə 4 dəfə yüksək kalorili yeməklə, təzə meyvə və tərəvəz, süd məhsulları ilə təmin olunurlar. Onların təbiət qoynunda nahar etmələri də təşkil edilir. Lahiyə iştirakçıları ölkəmizin Şimal rayonlarının görməli yerlərini ziyarət ediblər."

Zabit Əfqan Əliyev "Gənc Heydərçilər"in hərbi xidmət haqqında müəyyən məlumatlar əldə etdiyini, bir çoxunun gələcəkdə bu peşənin davamçıları olacağına əminliyini vurğuladı.

Yeniyetmələrin asudə vaxtlarının səmərəli keçirilməsi üçün müxtəlif oyunlar, yarışlar, viktorinalar keçirilir. "Gənc Heydərçilər"in dünyagörüşünün formalaşmasına xidmət edən inşa müsabiqəsi belə tədbirlərdəndir. Mahiyyət etibarilə vətənpərvərlik duyğularının daha da yüksəldilməsini təmin edən belə müsabiqələr həm də yaradıcılıq imkanlarının genişləndirilməsi üçündür. Müsabiqədə heç bir şərt - inşanın həcmi, konkret mövzu olmur.

Azərbaycan Dövlət İqtisad Universitetinin II kurs tələbəsi yazır: "Vətənə xidmət etmək çətin və məsuliyyətli olsa da şərəflidir." Hərbi xidmətin şərəfli olduğunu duyan, bu şərəfi yaşayan gələcək çağırışçı, gələcək əsgər, təbii ki, Vətən üçün yaşanılan ömrün dəyərli olduğunu dərk edir. "Gənc Heydərçilər"in yay düşərgəsi bu baxımdan dəyərləndirilir.

Yusif Cəfərzadə Azərbaycan Dövlət İqtisad Universitetinin II kurs tələbəsidi, universitetin "İqtisadi Vətənpərvərlər Mərkəzi"nin sədridi. "Gənc Heydərçilər"in vətənpərvərlik təmayüllü yay düşərgəsində təlimatçı kimi iştirak edir. O yazır: "Belə tədbirlərin işğaldan azad edilmiş torpaqlarda keçirilməsini arzulayırıq. O torpaqları sən azad edəcəksən, Azərbaycan əsgəri!" Bu amalla yaşayan çağırışçı, təbii ki, bu amalla xidmət edən əsgərlərin ruh qardaşıdı.

"Əsgər, əgər sən varsansa, Vətən də var. Əsgər qardaşım, biz sənə inanırıq, güvənirik. Vətənə xidmətinizlə hamımızın



əzizisiniz" - bu cümlələri Səbail rayonu 91 saylı tam orta məktəbin 11-ci sinif şagirdi Fariz Quluzadə yazıb. Belə duyğusal müraciət əsgərlərimizin mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə xidmət etmək istəyidir. Çağırışçılar əsgərlərimizin bu ruhda xidmət etməsini arzulayır.

Fariz Abdullayev inşasında şəhidlərimizi xatırladır, Azərbaycan əsgərinə xitabən yazır ki, onların amalını siz gerçəkləşdirəcəksiniz. Bu, bir xalqın istəyi olsa da, ümumilikdə xalqın istəyidir.

Amin İslamov inşasında vətənpərvərlik təmayüllü yay düşərgəsinin onun düşüncələrinə təsirindən, hərbi xidmətdə olmaq istəyindən danışır, həm də o qədər sevgilərlə danışır ki, onun səmimiliyinə tərəddüdsüz inanırsan.

Elmir Salahlı Quba rayonunda anadan olub. "Düşərgəyə gəlməmişdən əvvəl də hərb həyatı ilə maraqlanırdım. Televiziyalarda göstərilən hərbi məzmunlu verilişləri böyük maraqla gözləyir və izləyirdim. Burada özümü əsgər kimi hiss edirəm. Səhər 06:00-da yuxudan oyanırıq. Səhər gimnastikasından sonra bizə otaqlarda səliqə-sahman yaradılması üçün vaxt verilir. Səhər yeməyindən sonra sıra hazırlığı məşğələsi keçirilir. İstər səhər yeməyi, istərsə də günün digər vaxtları üçün yeməklər çox dadlıdır. Biz, həmçinin hərbi hissədə olan yeni silahlarla da tanış oluruq. Onların taktiki-texniki xüsusiyyətləri barədə məlumat öyrənir, praktiki olaraq göstərilən formada söküb-yığmağa çalışıram. Asudə vaxtımızın səmərəli keçməsi üçün tarixi abidələrlə tanışlığımızı deməyi unutmayım. Bir sözlə, həm istirahət edir, həm də biliklərimizi təkmilləşdiririk. Mən burada həm də yeni dostlar qazandım. Bizə yaradılan şəraitdən məmnunuq."

Onur Musazadə aprel döyüşlərində şəhid olmuş pilot Təbriz Musazadənin oğludu. 10 yaşlı Onur "Atatürk lisesi"ndə təhsil alır. "Hər zaman atamla fəxr edirəm və ona layiqli övlad olmağa çalışıram. Düşərgənin başlamasını səbirsizliklə gözləyirdim. Hərbi qayda-qanunları sevirəm. Mən də atam kimi pilot olmaq istəyirəm".

Seyid Məmmədovun da atası hərbçidir. O da həmin istəklə yaşayır - zabit olmaq.

Yeniyetmələrin fikirlərini dinləmək xoşdur.

**Leytenant**
**Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Rəhim YUSİFLİNİNDİR**

AZƏRBAYCAN ORDUSU

# Ölkənin dövlət maraqları ciddiliklə nəzərə alınmalıdır




*Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə "Dinc Dünya" Araşdırma Mərkəzinin "Konflikt jurnalistikası məktəbi" adlı birgə layihə Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən dördüncü dəfədir keçirilir. Layihəyə əsasən dinləyicilər hadisə yerinə tələsən reportyorun ərazini tanıması, səmtləməni bilmə, obyektin uzaqlığını gözlə təyin etmə, səsin uzaqlığını müəyyən etmə və s. barədə mühazirələr dinləyir, hərbi hissədə təcrübi vərdişlər öyrənirlər.*

*Müsahibimiz "Dinc Dünya" Araşdırma Mərkəzinin sədri, ehtiyatda olan zabit, jurnalist Əlisafa Mehdiyevdir.*

**- Əlisafa müəllim, 2014-cü ilin avqustunda Qarabağda düşmənlə qoşunlarımızın təmas xəttində yaranan gərginlik zamanı bəzi redaksiyalarda, daha çox da elektron mediada hərbiyönümlü informasiyaların dərc edilməsində qeyri-peşəkarlığa yol verildiyini xatırlayırsınızmı?**

- Xatırlayıram. O zaman müharibə şəraitində yaşayan Azərbaycanın informasiya məkanında belə halların gələcəkdə təkrarlanmaması üçün dövlət səviyyəsində təcili və zəruri tədbirlər oldu. O tədbirlərdə ölkəmizin müdafiə qabiliyyətinə xələl gətirən bu cür informasiyaların yayımlanması üçün KİV-in məsuliyyət anlayışı daha da qabardıldı. Nəticə etibarı ilə, həmin il sentyabrın 24-də ölkə Prezidenti "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası silahlı qüvvələrinin təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" sərəncam verdi. Bu da ölkəmizin informasiya təhlükəsizliyi sisteminin daha da təkmilləşdirilməsi üçün təcrübə-təlim bazasının yaranmasına zəmin oldu.

**- Keçmiş zabit və bu gün peşəkar hərbi media eksperti kimi bu mövzuda yazan jurnalistlərə tövsiyələriniz.**

- Hər şeydən öncə hər bir media təmsilçisi ilk növbədə ölkəmizin milli və dövlət maraqlarını ciddiliklə qorumağı öyrənməlidir. Bir səs-küy eşidən kimi ora qaçan "reportyor" bu sahənin peşəkarı ola bilməz. Uzun illərin təlim-dərslərini keçməlidir. Bu, mənəvi borcdur, vətəndaş vəzifəsidir, qaçılmazdır, keçilməzdir. Torpaqlarının bir qarışı belə işğal altında olan jurnalist informasiya cəbhəsində düşmənlə döyüşürmüş kimi normalara əməl etməlidir. Bu şəraitdə hər kəs vətəndaşlıq mövqeyində ciddi olmalıdır.

Hərbi mövzuda yazan KİV əməkdaşı aldığı informasiyanı dəqiqləşdirmədən və yoxlamadan yayırsa, jurnalistikanın əsas qanunlarını pozmuş olur. Çünki belə hallarda cəmiyyətdə çaşqınlıq yaşanır, KİV-in cəmiyyət qarşısında öhdəlikləri pozulur. Bu xəbərləmə dövlətin informasiya siyasətinə zədə vurursa, birmənalı şəkildə vətənə xəyanət motivləri ilə cinayət törətmiş olur.

Artıq demək olar ki, akademik səviyyədə təhsil bazası formalaşdırmışıq. Tövsiyəm bu sahədə çalışanların təlimə gəlməsidir.

**- İnformasiya təhlükəsizliyi dövlət qanunları ilə tənzimlənir. Bunları bildiyi halda və konkret halda hərbi mövzuda yazan jurnalist məxfiçiliyin qorunmasında hansı məqamlara ciddi nəzər yetirməlidir?**

- Məsələn, milli təhlükəsizlik və müdafiə mülahizələrinə görə xüsusi əhəmiyyət kəsb edən obyektlərin dislokasiyası, təyinatı, silahlı birləşmələrin strateji, operativ və səfərbərlik üzrə yerləşdirilməsi, hərbi hissələrin təşkilati strukturu, şəxsi heyətin sayı barədə məlumatlar və eyni zamanda "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə mühafizə olunan dövlət sirri təşkil edən məlumatların yayılması həmin qanunun 5-ci maddəsinə əsasən qadağandır. Hərbi sahədən material hazırlayan KİV nümayəndəsi, bir qayda olaraq, ilk növbədə Müdafiə Nazirliyi ilə faktı dəqiqləşdirməli və verəcəyi xəbərə həssaslıqla yanaşmalıdır. Onu da deməliyəm ki, 2016-cı ilin aprel döyüşlərində Azərbaycan KİV-i keçən nöqsanlardan ciddi nəticə çıxararaq və görülən tədbirlər nəticəsində qanunlara söykənərək tələblərə uyğun hərəkət etdi.

**- Ölkə Prezidentinin məlum sərəncamından irəli gələn tələblərlə bağlı 29 oktyabr 2015-ci il tarixdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov "Kütləvi informasiya vasitələri nümayəndələrinin cəbhəboyu zonada fəaliyyətinin tənzimlənməsi" haqqında əmr imzaladı. Sərəncamda əks olunan məsələlərin yüksək səviyyədə həyata keçirilməsi məqsədilə Müdafiə Nazirliyi ilə sizin həbərlik etdiyiniz "Dinc Dünya" Araşdırma Mərkəzi ilk olaraq "Ekstremal şəraitdə fəaliyyət göstərən jurnalistlərin psixoloji hazırlanması və təcrübi bilgiləndirməsi" adlı birgə layihəni gerçəkləşdirdi. Məhz sizin təşəbbüsünüzlə reallaşan bu layihə barədə məlumat verməyinizi xahiş edirik.**

- Elə o sərəncama əsaslanaraq "Dinc Dünya" Araşdırma Mərkəzinin ehtiyatda olan zabit üzvləri və jurnalistika mütəxəssisi olan üzvləri "Ekstremal jurnalistika"nın Azərbaycanda ilk dəfə peşəkar səviyyədə öyrədilməsi ilə bağlı Müdafiə nazirinə əsaslandırılmış məntiqlə layihə təklifi ünvanladı. Bundan sonra nazir layihənin Müdafiə Nazirliyinin bazasında qurulmasına bütün şəraiti yaratdı. İndi, 4 ildən sonrakı fərqi özünüz dəyərləndirin. Nazirliklə birgə qurulan layihəmiz deyilən istiqamətlərdə uğurla reallaşır. Onu qeyd edim ki, "Ekstremal şəraitdə fəaliyyət göstərən jurnalistlərin psixoloji hazırlanması və təcrübi bilgiləndirilməsi" adlı ilk birgə layihəmiz mərkəzimizin təşəbbüsü, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı, Müdafiə Nazirliyinin, Mətbuat Şurasının və Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin təşkilati dəstəyi ilə gerçəkləşir. 2015-ci ilin noyabr-dekabr aylarında keçirilən təlimlərdə hərbi mövzuda yazan jurnalistlərə nəzəri-təcrübi biliklər aşılanmışdı. Milli təhlükəsizliyə xələl gətirən informasiyaların yayılmasının qarşısının alınması və dövlət sirri təşkil edən hərbi məlumatların qorunması məsələlərini ciddi öyrənmək üçün qurumumuz layihələrini bu gün səngər yaxınlığında poliqonlarda yüksək şəraitdə reallaşdırır.

**- Əvvəlki illərlə müqayisədə kiçik nöqsanlar nəzərə alınmazsa, hərbi mövzuda yazan jurnalistlərdə ciddi peşəkarlıq hiss olunur. Bu barədə də fikrinizi bilmək maraqlıdır.**



- Media rəhbərləri, bəzi dövlət qurumlarında təmsil olunan şəxslər deyirlər ki, keçirilən layihələrin nəticəsi var. Deməli, təlimlər öz bəhrəsini verir. Əlbəttə, hər bir insan əməyinin, çəkdiyi zəhmətinin bəhrəsini görəndə sevinməyə bilməz. Təlimlər davamlı olaraq keçirilirsə, deməli, "Konflikt Jurnalistikası Məktəbi" öz səmərəsini verir. Təlim həm də internet üzərindən aparılır.

**- Keçirilən təlim kurslarında indiyədək neçə nəfər media nümayəndəsi iştirak edib?**

- Bu il 20 nəfər təlim alan KİV əməkdaşını da nəzərə alsaq, ümumilikdə 140 nəfərə diplom vermiş olacağıq. Təbii ki, minlərlə hesablanan Azərbaycan jurnalistlərinin ölçüsündə bu çox azdır. Biz davamlı olaraq min, iki min nəfərə təlim keçməliyik ki, bunların sırasından gələcəkdə 20-30 nəfər peşəkar müxbir, reportyor və operator, mövzu üzrə mütəxəssis kimi fəaliyyət göstərməyi bacarsın.

**- Əlisafa müəllim, "Konflikt Jurnalistikası Məktəbi"ni yaradarkən hansı beynəlxalq və ayrıca ölkənin təcrübəsindən yararlandınız?**

- Türkiyə Cümhuriyyətinin Anadolu Ajansındakı Savaş Mühabirliyi Okulunun və həm də Moskva Dövlət Universitetinin nəzdində yerləşən Ekstremal Jurnalistika Mərkəzinin təcrübələrini götürdük. Onu da deyim ki, bunlar fərqli-fərqli məktəblərdir. Savaş Mühabirliyi Okulunda hadisə yerində sağqalma təlimləri keçirilir. Amma MDU-nun Ekstremal Jurnalistika Mərkəzində daha çox informasiya müharibəsinə yön verilir. Dezinformasiyalar, alınmış informasiyanın yönəldilməsi və sairə. Biz isə hər iki qurumun qarışığı olan Azərbaycan mühitinə və dövlətçiliyinə xidmət edən bir məktəb yaratdıq. Beləliklə, Azərbaycanda konflikt jurnalistikası məktəbinin akademik modelə oxşar formasını ortaya qoya bilmişik.

Onu da əlavə edim ki, Sərhədsiz Jurnalistlər Təşkilatı (RSF) araşdırmalar mövzusu üzrə xeyli beynəlxalq təcrübə verdi. Ümumdünya Mülki Cəmiyyət Qurumları ciddi maddələrlə sözünü deyən təşkilatdır. Onların təcrübələrini diqqətlə öyrənirik. NBC Nyus-un təlimləri ekstremal halların işıqlandırılması zamanı hər hansı komissiyanın, ya komitənin məsləhətlərinə deyil, təcrübəli, peşəkar jurnalistlərin yaxşı təcrübəsinə söykənmək gərək olduğunu deyir. Bu tipli fövqəladə vəziyyət bəzən o qədər kəskin olur ki, hadisələrin təqdimatında redaktorlar dəqiqlik, vaciblik, mülahizələrin düzgünlüyü, olayların inkişafını anlamaq, qərəzsizlik, informasiyanın harmoniyalılığı kimi məsələlərdə çox diqqətli və ehtiyatlı olmalıdır. Bax, bu deyilənlər az qala "Konflikt Jurnalistikası Məktəbi"nin kredosudur.

**- Dörd il ərzində təlim keçənlər neçə mühazirə dinləyib?**

- Mühazirələrin sayı 100-ü keçib. Burada həm dövlət qanunları, həm cəmiyyət qaydaları, həm də jurnalistikanın qızıl qaydaları (yəni, təlimə qədər) öyrədilir. Ekstremal vəziyyətdə səngərdə, dağda, meşədə sağqalma qaydaları öyrədilir. Sonra isə toplanan faktların necə və hansı formada istehlakçıya ötürülməsi prosesi öyrədilir. Zaman-zaman mövzular çoxalır. İnanıram ki, yaxın gələcəkdə bütün redaksiyalar jurnalistlərini, reportyorlarını "Konflikt Jurnalistikası Məktəbi"nə təlim kurslarına göndərəcək.

**- Təlim kurslarında ilkin olaraq jurnalistlər hansı vərdişlərə yiyələnir?**

- Təbiidir ki, ekstremal hadisə yerinə gedən jurnalist ekstremal jurnalistikanın universal qaydalarını bilməlidir. Əgər sadə bir cümlə qurmağı bacarırsa və gedib oradan "qəhrəman" kimi qayıdırsa, hərbin qanunlarını, hərbi davranışı, silah və texnikanı bilməyə-bilməyə gəlib dövlətin informasiya təhlükəsizliyi prinsiplərini pozursa, bu jurnalistika deyil. Biz elə bu məsələləri öyrədirik: silahla təmasda olmaq, hərbi qulluqçularla təmasda olmaq, zirehli texnika ilə təmasda olmaq və özünü bu mühitin bir nümayəndəsi kimi tanımaq, elə bil özü barədə danışırmış kimi cəmiyyətə informasiya vermək. Bizim təlimlərimiz bunlara köklənib. Yüksək rütbəli zabit dostumuz bir dəfə söhbətində dedi ki, səkkiz il oxuduqdan sonra leytenant rütbəsi aldım, lakin hərbidən danışmağa ehtiyat etdim. Amma bu jurnalistlər səkkiz cümlə yazandan sonra istəyirlər ki, hərbidən roman yazsınlar. Biz istəyirik ki, jurnalist hərbin içində olsun. Yalnız bundan sonra o, nəyin necə yazılacağını və həm də dövlətin informasiya təhlükəsizliyinə xələl gətirməyəcəyini müəyyənləşdirə bilər.

Bununla birgə, təlimalanlar təhlükəsizlik qaydalarına qol çəkirlər, sığorta olunurlar, tibbi müayinədən keçirlər, stringer formasi geyinirlər və s.

**- "Konflikt Jurnalistikası Məktəbi"ni perspektivdə nə gözləyir?**

- Məktəbin artıq keçən ilin oktyabrından planları tutulub. Tədris proqramı var. Bu ilin sentyabrından BDU-nun jurnalistika fakültəsində konflikt jurnalistikası mövzusu tədris edilməsi planlaşdırılıb. Ekstremal jurnalistika konflikt jurnalistikanın tərkib hissəsidir. Yəni, biz təkcə döyüşdə, yanğında, seldə, daşqında, uçqunda, texnogen hadisələrdə deyil, sadəcə olaraq vətəndaşla, məmurla qarşılıqlı münasibətlərin tənzimlənməsində də konfliktləri öyrənirik və öyrədirik. Ona görə də bizim məktəb, demək olar ki, çox geniş akademik səviyyəli mövzu yükünə malikdir.

**- Son sözünüz?**

- Qeyd etdiyim kimi, artıq dördüncü ildir media təmsilçilərinin Azərbaycan Ordusunda təcrübə kursları keçməsi üçün Müdafiə Nazirliyi böyük əmək sərf edir, maddi vəsaitini xərcləyir. Mən Müdafiə naziri general-polkovnik Zakir Həsənov başda olmaqla, bu layihənin gerçəkləşməsində əməyi olan bütün zabit heyətinə minnətdarlığımı bildirirəm. Müdafiə Nazirliyinin şərait yaratması bu məktəbin araya-ərsəyə gəlməsini reallığa çevirdi. Müdafiə Nazirliyi qapısını açdı, mütəxəssislərini verdi, səngərini verdi, poliqonlarını verdi. Məhz ona görə də Azərbaycan konflikt jurnalistikası bu təcrübələrin bazasında yarandı.

**Müsahibəni apardı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Bakıda NATO-nun təhsil üzrə ekspertləri ilə işçi görüşü keçirilir

Hərbi təhsil sisteminin inkişafına dəstək üzrə NATO-Azərbaycan birgə fəaliyyət planına uyğun olaraq Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramı (DEEP) çərçivəsində NATO-nun ekspert qrupu tərəfindən Müdafiə Nazirliyi və Alyansın mütəxəssisləri arasında işçi görüşü keçirilir.

Silahlı Qüvvələrin Hərbi Akademiyasında iyulun 27-dək davam edəcək işçi görüşdə müasir pedaqoji texnologiyalar, taksonomiyanın əsasları və s. bu kimi məsələlər ətrafında müzakirələr aparılacaq.



# "Tank biatlonu" müsabiqəsində iştirak edən komandaların püşkatması keçirilib





Rusiyanın Alabino hərbi poliqonunda "Beynəlxalq Ordu Oyunları - 2018" yarışlarının "Tank biatlonu" müsabiqəsində iştirak edəcək komandaların püşkatma mərasimi keçirilib.

Püşkatmada komandaların rəhbərləri, məşqçilər və tank heyətlərinin üzvləri iştirak ediblər.

Püşkatmanın nəticələrinə əsasən Azərbaycan tankçıları iyulun 28-də yarışların ilk günündə çıxış edəcəklər. Komandamız Zimbabve, Hindistan və Cənubi Afrika Respublikasından olan tank heyətləri ilə yarışacaq.

Müsabiqədə bu il 23 ölkədən tank heyətləri iştirak edir.

## "Dəniz Kuboku-2018" müsabiqəsinə hazırlıq məqsədilə naviqasiya üzrə zəruri planlaşdırma fəaliyyətləri icra olunub

*Beynəlxalq Ordu Oyunları çərçivəsində ölkəmizdə keçiriləcək "Dəniz Kuboku-2018" müsabiqəsinə hazırlıq məqsədilə Əməliyyat Baş İdarəsinin Naviqasiya və Kartoqrafiya İdarəsində zəruri planlaşdırma fəaliyyətləri icra olunub.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbir zamanı dəniz poliqonlarının müəyyənləşdirilməsi, ərazinin naviqasiya avadanlığı vasitələri ilə təchizatı, müsabiqə keçiriləcək dəniz rayonlarında və akvatoriyalarda gəmi sürücülüyünün təhlükəsizliyinin təmin edilməsi üzrə kompleks tədbirlər yerinə yetirilib.

# "Ermənistan Müdafiə Nazirliyinin nümayəndəsinin "çəkdiyi" görüntüləri adi məktəbli də edə bilər"

Ermənistan Müdafiə Nazirliyinin nümayəndəsi "Google Earth" vasitəsilə planetin hər hansı nöqtəsinin görüntüsünü çəkərək, onu erməni ictimaiyyətinə təqdim edə bilər. Eyni yolla da Ermənistan ordusunun göstərilən ərazini nəzarəti altında saxladığını da fotonun aşağısında yazmaq mümkündür. Bu gün hətta adi məktəbli də həmin üsulla internet proqramından istifadə edərək istənilən ərazinin surətini çıxarıb onu sosial şəbəkələrdə paylaşa bilər.

Bu barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi polkovnik Vagif Dərgahlı bildirib.

"Zarafatı bir kənara qoysaq, Arsruna afərin ki, bizə növbəti dəfə azad etməli olduğumuz oriyentirləri dəqiq göstərib", - deyə V.Dərgahlı vurğulayıb.

Xatırladaq ki, Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Arsrun Hovannisyan bu günlərdə "Facebook"dakı səhifəsində paylaşdığı fotoları Ermənistan mövqelərindən özünün çəkdiyini, həmin görüntülərin guya Ordubad şəhərinə və ətraf kəndlərə aid olduğunu iddia etmişdi.

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyənin təhlükəsizlik qüvvələri 13 terrorçunu zərərsizləşdirib



Türkiyə Hərbi Hava Qüvvələrinin qırıcılarının son iki gündə keçirdiyi antiterror əməliyyatları nəticəsində ölkənin Hakkari və Ərzincan bölgələrində, İraqın şimalındakı Avaşin-Basyan ərazisində 11 terrorçu zərərsizləşdirilib.

Ərzincanda daha 2 terrorçu artilleriya atışı ilə məhv edilib. Terrorçuların fəallaşması ilə əlaqədar Hakkari vilayətinin 3 rayonunda komendant saatı elan olunub.

Suriyadan Türkiyəyə keçən PYD-PKK terror təşkilatının üzvü olan 2 terrorçu Şanlıurfada təhlükəsizlik qüvvələrinə təslim olub.

Başqa bir rəsmi məlumatda isə bildirilir ki, iyulun 22-də Suriyanın Kobani bölgəsindən Türkiyəyə keçən iki PKK-PYD mənsubu Suruç ərazisində yaxalanıb.

Antiterror əməliyyatları davam edir.

## Ərbildə valiliyə silahlı hücum zamanı üç terrorçu zərərsizləşdirilib



İraq kürd muxtar vilayətinin təhlükəsizlik qüvvələri Ərbil şəhər valiliyinə hücum edən üç terrorçunu zərərsizləşdirib.

Naməlum silahlı qrupun valiliyə hücumu zamanı bir polis yaralanıb.

Hadisə ilə bağlı məlumat verən Ərbil təhlükəsizlik xidmətinin rəhbəri Tareq Nuri bildirib ki, valiliyə hücum edənlər kürd əsilli vətəndaşlardır. Hadisənin detalları ilə bağlı araşdırma aparılır. Əməliyyat zamanı təhlükəsizlik qüvvələrinin silahlılar tərəfindən girov götürülən əməkdaşları azad edilib. Silahlı qarşıdurma nəticəsində valiliyin bir əməkdaşı qətlə yetirilib.

## Kabil aeroportu yaxınlığında törədilmiş partlayış nəticəsində 16 nəfər ölüb



Kabil aeroportu yaxınlığında intiharçı-terrorçunun törətdiyi partlayış nəticəsində 16 nəfər ölüb, 60 nəfər yaralanıb. "TOLOnews" telekanalının Əfqanıstanın Daxili İşlər Nazirliyinə istinadla verdiyi məlumata görə, hadisə ölkəyə qayıtmış Birinci vitse-prezident Əbdül Rəşid Dostumun aeroportu tərk etməsindən sonra törədilib.

Yaralananların əksəriyyəti polis əməkdaşlarıdır. Terrorçu birləşmələrin heç biri hadisənin məsuliyyətini öz üzərinə götürməyib.

Təqib edilən Əbdül Rəşid Dostum 14 ay Türkiyədə qalıb. Çarter reyslə gələn siyasətçinin olduğu təyyarə Hamid Karzai adına beynəlxalq aeroporta enib. Yüzlərlə insan, o cümlədən yüksək vəzifəli məmurlar onu qarşılamaq üçün aeroporta gəliblər.

## Ukrayna hərbçiləri yeni silahla təmin olunacaqlar



Ukrayna silahlı qüvvələri yaxın vaxtlarda "Ukroboronprom"un istehsal etdiyi RPO-16 reaktiv piyada atıcıları ilə təmin olunacaq.

Bu barədə Ukrayna Prezidenti Petro Poroşenko açıqlamasında deyib. Prezident bildirib ki, bu silah növü Ukraynanın hərbi gücünü artıracaq.

Qeyd edək ki, RPO-16 reaktiv piyada atıcısı xüsusi termobarik qarışığı olan reaktiv qumbara ilə təchiz olunub. Eyni zamanda, RPO-16 atışının partlayıcı hərəkətləri böyük kalibrli artilleriya qabığına bərabərdir. Buna görə də, bu silah növü təxminən bir kilometr məsafədə yüngül zirehli vasitələrlə düşmənin canlı qüvvəsini məhv etməyə qadirdir.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasında seminar keçirildi




*İyulun 23-də Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasında Facet MMC şirkəti "Xəstəxanadaxili infeksiyalarla mübarizə tədbirləri və sahənin əhəmiyyəti, dezinfeksiya antiseptika sterilizasiyadakı sanitar qaydalar" mövzusunda seminar keçirildi.*



Seminarda tibb müəssisələrində təmizlik, dezinfeksiya və sterilizasiyaya aidiyyəti olan kiçik tibb işçiləri, İnfeksiya nəzarət komitəsinin rəhbəri və komitənin üzvləri, İnfeksionist həkim və tibb bacısı, Mərkəzi sterilizasiya şöbəsinin tibb bacıları və texnikləri, Klinik Hospitalın baş tibb bacısı, cərrahi blokun məsul şəxsi, tibb bacıları və Endoskopiya şöbəsinin tibb bacıları və kiçik tibb bacıları iştirak etdilər.

Facet MMC şirkəti Azərbaycanda tibbi ləvazimatların, əsasən dezinfeksiya məhsullarının satışını həyata keçirən şirkətdir. Şirkət bu sahədə mövcud olan dövlət və özəl tibb müəssisələrində dezinfeksiyanın mahiyyəti və əhəmiyyəti, tibb müəssisələrində uyğun dezinfektant seçiminin edilməsi, dezinfeksiya və sterilizasiya işlərindəki müasir üsulların tətbiq edilməsi, xəstəxanadaxili infeksiyaların profilaktikası və digər mövzularla bağlı təlim və seminarlar da keçirməkdədir.

Seminar iştirakçıları ilə mövzu ətrafında geniş diskussiya aparıldı.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan və Ermənistan Respublikasının dövlət sərhədində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyulun 25-də Azərbaycan və Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster keçirəcəklər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Oqnyen Yoviç, Mixail Olaru və Saymon Tiller keçirəcəklər.

*Hərbi texnikalar, silahlar*

# "Polonez" reaktiv sistemi

*2015-ci ildə Çinin hərbi təlim meydanında Belarus ordusunun yaylım atəşli "Polonez" reaktiv sisteminin ilk dövlət sınağı keçirilib.*

Onun hazırlanmasında 20-dən çox müəssisələr işləyib və ləyaqətlə üzərinə düşən tapşırıqları yerinə yetirib. Belarusun özündə də onun sınağı uğurla həyata keçirilib. "Polonez" Belarus ordusunun ən müasir təhlükəli silahı sayılır. Belarus prezidenti Lukaşenko Belarus Respublikasının müstəqilliyi günündə paradda çıxışı zamanı yaylım atəşli "Polonez" reaktiv sisteminin Belarus Ordusunun müasir və ən təhlükəli silahı olduğunu bildirib. Bu kompleks silahlanmada duran yaylım atəşli reaktiv sistemlər ailəsinə əlavə ediləcək. Bu döyüş maşınının bir raketi eyni vaxtda səkkiz hədəfə dəqiq zərbə endirməyə qadirdir. Belə bir dəqiqlik də mövcud operativ-taktiki raket komplekslərinə və bombardmançı aviasiya komplekslərinə xarakterik olan bir çox döyüş tapşırıqlarını yerinə yetirməyə imkan verəcək. Həm də bu kompleks yerüstü qoşun qruplaşmalarına atəş dayağı durmaq üçün ən güclü vasitələrdən biri sayılır.

"Polonez"in yeni modifikasiyasının məhvetmə uzaqlığı 300 kilometr təşkil edəcək. Bu kompleksin tərkibində müxtəlif döyüş hissələri olmaqla müxtəlif raketlərə malikdir. Bundan başqa "Polonez" yüksək HHM sistemlərini dəf etməyə və müxtəlif konfiqurasiya nöqtəsində yerləşən obyektləri yüksək dəqiqliklə məhv etməyə qadirdir. Onun hazırlanması zamanı müasir şassidən, rabitə və məlumatlandırma vasitələrindən, proqram təminatından istifadə edilib. Verilən məlumata görə, "Polonez" dünya analoqlarını ötə bilər. MİLEKS-2017 Beynəlxalq silahlanma və hərbi texnika sərgisində yeni raket versiyasını təqdim edib. Verilən məlumata görə, "Dəqiq elektromexanika" şirkəti tərəfindən "Polonez" kompleksi üçün atəş uzaqlığı 280 kilometrə qədər olan taktiki raketlərin hazırlanması üzrə işlər də aparılmaqdadır. Rəsmi məlumata görə, raketlərin döyüş başlığının çəkisi 480 kiloqram təşkil edir. "Polonez" sistemi 220 mm kalibrli "Uraqan" və 300 mm-lik "Smerç" raket komplekslərini əvəz edəcək. O da məlumdur ki, bu sistem Çinin texniki köməyi ilə hazırlanıb.



Raket kompleksindən düşmənin açıq sahədə və daldalanacaqlarda olan qoşunlarını, zirehli və zirehsiz texnikasını, raket-artilleriya sistemlərini, HHM vasitələrini, aerodromda olan aviasiyasını məhv etmək üçün nəzərdə tutulub. O da məlumdur ki, Belarus alimlərinin qarşısına yeni bir raketin - 300 kilometr məsafəyə qədər uçan raketin hazırlanması vəzifəsi qarşıya qoyulmuşdu və bu gün müasir raketi geniş kütləyə göstəriblər. Raketin uzunluğu 8 metr, çəkisi 4 ton, döyüş hissəsinin çəkisi isə trotil ekvivalentində 500 kiloqram təşkil edib.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində təlim-məşq zamanı partlayış baş verib.

Hadisə zamanı ağır yaralanmış 3 erməni hərbçisi Ağdərə şəhərindəki hospitala yerləşdirilib.

İnsidentlə bağlı məruzə edən "zampolit" Armen Mkrtıçyanın sözlərinə görə daha 7 nəfər yüngül xəsarət alan əsgərlər isə ilkin tibbi yardım göstərildikdən sonra xidmət yerlərinə göndərilib. A.Mkrtıçyan onu da bildirib ki, hadisə cavabdeh şəxsin səriştəsizliyi səbəbindən baş verib. Faktı hospitalın həkimi Xoren Azaryan da təsdiq edib.

* * *

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində daha bir qalmaqal baş verib.

Xidmətdən boyun qaçırmaq məqsədilə Ağdərə hospitalına yerləşdirilən Andranik Alaverdiyan burada da dinc durmayıb. Hərbi xidmətə etiraz əlaməti olaraq o, yeməkdən və yatmaqdan imtina edib.

İşin böyüməsindən və ictimailəşməsindən narahatlıq keçirən hərbi hissə komandanlığı cinayət işi açmaqdan vaz keçərək, qarşıdurmanı yoluna qoymaq məqsədilə A.Alaverdiyanın valideynlərini hərbi hissəyə çağırıblar.

* * *

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində hərbi əmlakın oğurlanması ilə bağlı növbəti insident qeydə alınıb.

Xəbərdə bildirilir ki, tibb məntəqəsindən oğurladığı əşyaları satarkən erməni hərbçisi tutulub. Hadisəni törədən Davit Davityan adlı hərbi qulluqçu bunu mağazaya olan borcunu ödəmək məqsədilə etdiyini bildirib.

Araşdırma zamanı məlum olub ki, D.Davityan bu addımı mağaza sahibi borcunu ödəməyəcəyi təqdirdə şikayət edəcəyi ilə hədələdiyinə görə atıb.

* * *

İşğal olunmuş Ağdərə yaşayış məntəqəsində yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində xidmət edən iki hərbçi avtomobil qəzasına uğrayıb.

Qəza nəticəsində hər iki hərbçi həyatını itirib. Ölən hərbçilərdən biri Qrişa Badalyandır. İkincisinin kim olduğu və hansı hərbi hissədə xidmət etdiyi dəqiqləşdirilir.

Faktlarla bağlı araşdırma aparılır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

Baş leytenant Məhərrəmzadə İmran Gülməmməd oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Gizir Məmişli Sahil Ağaverdi oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 467
Nüsxə 3550